# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNTELLEKTUAL İNKİŞAFI PROBLEMİNİN TƏLİM-TƏRBİYƏ PROQRAMLARINDA QOYULUŞU

**Səlahət Musayeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: salaxat1955-@gmail.ru

**Rəyçilər:** *prof.* Y. Kərimova
*dos.* B. İbadova

***Açar sözlər:*** *intellektual inkişaf, inkişaf, bilik, qabiliyyət, bacarıq, dərketmə, integrativ, strategiya, fərdi, differensial*

***Ключевые слова:*** *интеллектуальное развитие, развитие, знание, способность, навык, познание, интегративное, стратегия, индивидуальное, дифференциальное*

***Keywords:*** *cognitive development, development, knowledge, ability, cognition*

Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı məsələsi müasir dövrün ən aktual problemlərindəndir. Bu gün ölkəmizə intellektual səviyyəsi yüksək, cəsarətli, sərbəst, xüsusi orijinal düşüncə tərzi ilə fərqlənən, yaradıcılıq qabiliyyətinə malik, bacarıqlı,qeyri-standart qərarlar qəbul edə bilən insanlar lazımdır. Belə şəxsiyyətlərin formalaşmasının təməli məktəbəqədər təhsil müəssisələrində qoyulur.

Məktəbəqədər təhsilin keyfiyyətini daha da artırmaq məqsədi ilə 1998-ci ildə məktəbəqədər təhsil sahəsində ilk milli proqram ("Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı") hazırlanaraq nəşr edildi. O indi də tətbiq edilir. Bu sənəd ("Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı") ilk milli proqram olsa da, əsasən, keçən əsrin təcrübəsinə əsasən tərtib olunmuşdur. Həmin proqram kommunist tərbiyəsinin tərkib hissələrinin qarşıya qoyduğu tələbləri özündə əks etdirirdi. Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra, təhsilin müasirləşdirildiyi və humanistləşdirildiyi bir zamanda məktəbəqədər müəssisələr mövcud metodikanın tələbləri ilə işləyə bilməzdi. Proqramın əsas ideyasını fiziki, əqli, əxlaqi, əmək, estetik və sensor baxımdan uşaqlara müəyyən biliklərin öyrədilməsi təşkil edirdi. "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nda əsasən mövzular üzrə biliklərin verilməsi nəzərdə tutulurdu. İnteqrativliyin nəzərə alınmaması isə qazanılmış biliklərin birtərəfli olmasına gətirib çıxarırdı. Bilikyönümlü və müəllimyönümlü, yaddaşa, hafizəyə əsaslanan bu proqram həm tərbiyəçinin, həm də uşağın yaradıcı inkişafına imkan vermirdi. Bu proqramın tələblərinə uyğun təlim prosesində uşaq təlim-tərbiyə prosesinin obyekti, tərbiyəçi isə subyekti olurdu. Uşağın bilik və bacarıqlarının inkişafına imkan verən mühitin yaradılması arxa planda olurdu .Ona görə də bütün bunlar uşağın digər inkişaf sahələri kimi, onun intellektual inkişafını da tam təmin etmirdi. Proqramda uşağın intellektual inkişafından söhbət getməsinə baxmayaraq, təlim prosesində dərketmə və düşünmənin, məntiqi və tənqidi təfəkkürün inkişafına, ümumiləşdirmə, müstəqil nəticə çıxarmaq bacarığına səthi diqqət yetirilirdi.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2007-ci il aprel ayının 12-də 2089 nömrəli əmrlə imzaladığı "Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı" təhsilin məzmununda dəyişikliklərin aparılmasını sürətləndirdi. Yuxarıda göstərilən hüquqi dövlət sənədində məktəbəqədər təhsilin məzmunca yeniləşdirilməsi məqsədilə "məktəbəhazırlıq baxımından uşaqların fiziki, sosial-mənəvi, estetik və psixoloji inkişafı, dərketmə və nitq qabiliyyətlərinin yüksəldilməsi üzrə əsas tələbləri özündə ehtiva edən, həmçinin pedaqoji prosesin humanistləşdirilməsini nəzərdə tutan məktəbəqədər təhsil üzrə milli kurikulumun hazırlanması və müvafiq qaydada təsdiq olunması"[1] tövsiyə olunur

"Məktəbəqədər təhsil proqramı (kurikulumu)" Azərbaycanın məktəbəqədər tərbiyə sahəsində ilk inteqrativ, uşaqların hərtərəfli inkişafına zəmin yaradan tarixi sənəddir. Bu bir yenilikdir. Bu proqramda ilk dəfə "məktəbəqədər tərbiyə" anlayışı "məktəbəqədər təhsil "anlayışı ilə əvəz olundu. Proqramın

İdrakı baxımdan intellektuallıq geniş və əhatəlidir. Buraya yüksək psixoloji keyfiyyətlərə, məntiqi təfəkkür qabiliyyətinə malik uşaqlar daxil edilir. Belə uşaqlar başqasının nitqini diqqətlə dinləyir, onu başa düşür və qarşısındakına öz fikrini tam sərbəst şəkildə çatdıra bilir, müstəqil biliklərə yiyələnməyi, öz hüquqlarını gözləməklə, problemi müxtəlif yollarla həll etməyi bacarır, xüsusi tolerantlığa malik olur, hadisələr arasında səbəb və nəticə əlaqələrini müstəqil surətdə şərh edir və s.

Estetik baxımdan kamilləşmə dedikdə ətraf aləmin gözəlliklərini duya bilən, problemin həllinə yaradıcı yanaşmağı bacaran, sərbəst və aydın nitq qabiliyyətinə malik olan, mədəni adət və ənənələrə yiyələnən uşaqlar başa düşülür.

Sosial-emosional keyfiyyətli kamil uşaq ətrafdakılarla tez ünsiyyət qurmağı, kollektivdə müstəqil işləməyi sevir, yeni şəraitə tez uyğunlaşmağı bacarır, kommunikativ əlaqələr quraraq şəxsiyyətlərarası əlaqələr yaradır. Sosial normalara tez uyğunlaşır, insanlara qayğıkeş, diqqətli, xeyirxah olmağı bacarır.

Məktəbəqədər təhsil proqramı (kurikulum) nəticəyönümlü sənəd olduğundan əvvəlcədən müəyyənləşdirilmiş nəticəyə nail olmaq üçün strategiyalar müəyyənləşdirir. Təlim strategiyalarına təlim prosesi və onun təşkili prinsipləri, təlimin təşkili zamanı istifadə edilən forma, vasitə, metod və priyomlar, təlimin planlaşdırılması aiddir. Uşağın inkişafı üçün təlim prosesinin təşkili zamanı inkişafetdirici mühitin yaradılması olduqca əhəmiyyətlidir. İnkişafetdirici mühitin yaradılması tərbiyəçinin və uşağın potensial imkanlarını üzə çıxarır. Uşaq belə mühitə düşdükdə tam sərbəst olur. Ona müstəqillik verilir, öz fikirlərini azad bildirməsi, sərbəst qərarlar qəbul etməsi, müstəqil seçim qabiliyyətinə malik olması üçün ona şərait yaradılır. Uşağın intellektual inkişafı üçün öyrədici mühitin imkanları genişdir. Tərbiyəçinin təşkil etdiyi öyrədici mühit müxtəlif məzmunda ola bilər. Bu zaman uşağın inkişafına xidmət edən standartlar, məşğələnin mövzusu və məqsədi əsas götürülür. Məzmuna uyğun inkişafetdirici mühit yaradılır.

Yeni proqrama əsasən uşağın inkişafı üçün təlim prosesinin təşkili zamanı inkişafetdirici mühitin yaradılması olduqca əhəmiyyətlidir. Təlim prosesinin təşkili zamanı inkişafetdirici mühitin yaradılması tərbiyəçinin və uşağın yaradıcı potensial imkanlarını üzə çıxarır. Uşaq belə mühitə düşdükdə tam sərbəst olur. Bu zaman ona müstəqillik verilir, öz fikirlərini azad ifadə etməsi, sərbəst qərarlar qəbul etməsi, müstəqil seçim etmə qabiliyyətinə malik olması üçün şərait yaradılır. Uşağın intellektual inkişafı üçün öyrədici mühitin imkanları genişdir. Tərbiyəçinin təşkil etdiyi öyrədici mühit müxtəlif məzmunda ola bilər. Bu zaman uşağın inkişafına xidmət edən standartlar, məşğələnin mövzusu və məqsədi əsas götürülür və məzmuna uyğun inkişafetdirici mühit yaradılır.

Uşağı inkişaf etdirmək məqsədilə əşyavi xüsusiyyətləri özündə əks etdirən inkişafetdirici mühit yaradarkən məşğələ üçün tələb olunan əyani vəsaitlər, oyuncaqlardan istifadə olunması nəzərdə tutulur. İntellektual cəhətdən inkişaf etmiş uşaqlar hər sahədə uğurlu nəticə göstərir və yaşıdlarına görə üstünlük əldə edirlər. İntellektual qabiliyyətə malik uşaqların söz ehtiyatı zəngin olur və onlar sözləri müxtəlif mənalarda işlədə bilirlər. Geniş təsəvvürə malik olan belə uşaqlarda mücərrəd düşünmə qabiliyyəti, problemlər ətrafında fikir irəli sürmək, düşünərək həll edə bilmək, öyrənməyə meyl kimi xüsusiyyətlər özünü göstərir. Onlar öz qərarlarında israrlı olur, iti yaddaşa malik olurlar. Belə uşaqlar lazım gəldikdə özlərini ələ almağı bacarır, bəzən isə hətta yumor hissindən istifadə edə bilirlər. Zəngin maraq dairəsinə malik olan belə uşaqlarda güclü müşahidəçilik, tənqidi mühakimə yürütmə qabiliyyətləri inkişaf edir.

İntellektual qabiliyyətə malik uşaqlar çox kiçik yaşlardan yaşadıqları ətraf aləmi təhlil etməyə başlayırlar. Onlara diqqət və qayğı göstərilməlidir. Belə uşaqlar üçün xüsusi proqramlar işlənib hazırlanmalıdır. Təlim-tərbiyənin təməli bir qanun olaraq inkişafa doğru yönləndirilməlidir. İntellektual qabiliyyəti olan uşaqlar özlərinin düşüncə tərzinə uyğun olmayan mühitdə sıxılırlar. Adi uşaqların yaşadıqları mühit onlar üçün cansıxıcı olur.





İntellektual inkişafa malik uşaqların əsas xüsusiyyətlərinə mükəmməl bilik, həssaslıq, sərbəstlik, müstəqillik, sağlam düşüncə uşağın idrakını və romantik inkişafını təmin edir. Belə uşaq mücərrəd düşüncələr haqqında düşünmək, ədalətli və obyektiv olmaq qabiliyyətini nümayiş etdirir.

Ondan əşyaların oxşar və fərqli cəhətlərini, yeni xüsusiyyətlərini tapmaq bacarığı tələb olunur. Uşaq aşağıdakıları bacarmalıdır:

1. İnformasiyanı qəbul etməyi və ona əsasən suallar verməyi;
2. Müşahidənin məqsədini qəbul etməyi və həyata keçirilməyi;
3. Əşya və hadisələrin əlamətlərini sistemləşdirməyi və qruplaşdırmağı.

Uşağın intellektual hazırlığı məqsədilə böyüklər uşaqlarda idrakı tələbatı inkişaf etdirməli, müvafiq vəzifələri və ətraf aləm haqqında biliklərin zəruri sistemini təqdim etməklə idraki inkişafın lazımi səviyyəsini təmin etməlidirlər.

**Problemin aktuallığı.** Cəmiyyətdə intellektual səviyyəsi yüksək olan insanların sayı artdıqca, onun inkişaf tərzi də müsbət inkişafa doğru irəliləyir. İntellektual inkişaf böyüməkdə olan nəslin dərketmə qabiliyyətinin bütün sahələrdə təzahür etməsidir. Bu gün qloballaşan və elmi-texniki sıçrayışın ən yüksək mərhələsini yaşayan dünyada uşaqların cəmiyyətin tələblərinə uyğun yetişdirilməsi öz *aktuallığını* hər gün göstərir.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, məktəbəqədər yaşlı uşaqların intellektual inkişafının və pedaqoji şərtlərinin mahiyyəti aydınlaşdırılmış, məktəbəqədər müəssisələrdə uşaqların intellektual inkişafının təmin edilməsi ilə əlaqədar təlim prosesinin texnologiyası işlənilmiş, uşaqların təfəkkürünün fəallaşdırılması üçün inkişafetdirici mühitin əhəmiyyəti əsaslandırılmış, intellektual imkanları, həcmi və məzmunu müəyyənləşdirilmiş, problem baxımından işin forma və yolları əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat nəticəsində əldə olunan nəticə və irəli sürülmüş ideyalar məktəbəqədər təhsilin kurikulumunun tətbiqinə xidmət edəcəkdir. Eyni zamanda göstərilən iş sistemindən, prinsip, vasitə, metod və priyomlardan məktəbəqədər təhsil müəssisələrinin rəhbər işçiləri, metodist və tərbiyəçiləri, ali və orta ixtisas məktəblərinin müəllimləri və tələbələri, valideynlər istifadə edə biləcək, müxtəlif yaş qruplarında təklif olunan metodika üzrə iş aparmaq mümkün olacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 168 №-li sərəncamı, 1999,15 iyun
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi proqramı (2007-2010-cu illər). Bakı şəhəri, 12 aprel 2007-ci il. "Azərbaycan müəllimi" qəz., 2007, 13 aprel
3. Uşaq hüquqları Konvensiyası. Bakı, 1998.
4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
5. "Məktəbəhazırlığın təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2010-cu il tarixli Qərarı.
6. "Məktəbəqədər Təhsilin dövlət standartı proqramı". 16 iyul 2010-cu il. http://www.edu.qov.az/
7. Məktəbəqədər Təhsilin Nümunəvi Nizamnaməsi. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 02 oktyabr tarixli 218 nömrəli qərarı.
8. Məktəbəqədər təhsilin proqramı (kurikulumu). (3-6 yaş). Bakı, 2014
10. İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxışı. 15 dekabr 2005-ci il. www.youtube.com/watch?v=XDkv


**С. Мусаева**

### ПОСТАНОВКА ПРОБЛЕМЫ ИНТЕЛЛЕКТУАЛЬНОГО РАЗВИТИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА В УЧЕБНО-ВОСПИТАТЕЛЬНЫХ ПРОГРАММАХ

**РЕЗЮМЕ**

В статье речь идет о проблемах интеллектуального развития детей дошкольного возраста. Отмечается, что это является актуальной проблемой современного периода, и в традиционных программах решение данной проблемы носило поверхностный, незавершенный характер. В новых программах (курикулумах) показаны пути и средства интеллектуального развития. В статье также

отмечается, что у интеллектуальных детей развиты такие положительные особенности характера, как чувствительность, самостоятельность, независимость, здоровое мышление, безупречное усвоение знаний.

**S. Musayeva**

**PROBLEM INTELLECTUAL DEVELOPMENT OF CHILDREN PRESCHOOL AGE IN EDUCATIONAL PROGRAMS**

**SUMMARY**

The article deals with the problems of intellectual development of children of preschool age. It is noted that this is an urgent problem of the modern period, and in traditional programs to address this problem had superficial, incomplete character. The new programs (curricula) shows the ways and means of intellectual development. The article also notes that the intellectual development of children such positive character traits as sensitivity, self-reliance, independence, healthy thinking, perfect assimilation of knowledge.

**Redaksiyaya daxil olub: 06.06.2016**